# Vətən naminə şəhadət

## Qəhrəmanlarımız böyük ehtitamla anılır



**Şəhid leytenant Cavid Nuruyev yad edilib**

Şərur rayonunda şəhid leytenant Cavid Nuruyev Əşrəf oğlunun anım günü münasibətilə Şəhidlər Xiyabanında tədbir keçirilib.

Tədbirdə yerli hakimiyyət və dövlət orqanlarının əməkdaşları, hərbi qulluqçular, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Cavid Nuruyev gənc yaşlarından vətən sevgisi, mərdliyi və hərbçi olmağa olan xüsusi marağı ilə seçilirdi. O, güclü iradəsi, dəqiqliyi, intizamı və yüksək döyüş hazırlığı ilə komandirləri və silahdaşları tərəfindən daim hörmətlə qarşılanıb.

Vətən müharibəsi başlayandan sonra Cavid Nuruyev cəbhənin ən çətin istiqamətlərində döyüşlərdə iştirak edib. O, üzərinə düşən tapşırıqları böyük cəsarət, soyuqqanlılıq və peşəkarlıqla yerinə yetirərək döyüş yoldaşlarına dəstək olub, göstərdiyi qəhrəmanlıq nümunələri ilə fərqlənib. Şəhid leytenantın döyüş yolunda fədakarlığı, Vətənə sədaqəti, göndərilən əmrləri tərəddüdsüz icra etməsi onu hər kəsin yaddaşında igid, nümunəvi zabit kimi qalmasına səbəb olub.

Tədbirdə çıxış edən natiqlər Cavid Nuruyevin həyat və döyüş yolundan danışaraq onun gənclər üçün əsl vətənpərvərlik məktəbi olduğunu vurğulayıblar. Qeyd olunub ki, şəhidlərimizin göstərdiyi igidlik, torpaq uğrunda canlarından keçən qəhrəmanlığın böyüklüyü heç zaman unudulmayacaq və gələcək nəsillərə örnək olaraq yaşayacaq.

Şəhidimizin ailəsinin, eləcə də onu tanıyanların sözlərinə görə, Cavid təvazökar, vətənpərvər, dürüst və mərd bir insan idi. O, "Vətən üçün yaşamaq şərəfdir, Vətən üçün ölmək isə fəxrdir" deyən qəhrəmanlarımızdan biri olub.

Tədbirin sonunda leytenant Cavid Nuruyevin və Şərur Şəhidlər xiyabanında dəfn edilmiş digər şəhidlərin məzarı ziyarət edilib, üzərinə gül dəstələri düzülüb, ruhuna dualar oxunub. Şəhidin ailə üzvləri ilə görüşülüb, onların qayğıları və xatirələri dinlənilib.

*Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən, Cavid Nuruyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib.*

**Şəhid leytenant Şükür Hacıyev yad edilib**

Babək şəhərində şəhid leytenant Hacıyev Şükür Bayram oğlunun anım günü ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Babək Rayon İcra Hakimiyyəti başçısı Ovni Muradov çıxış edərək bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsi nəticəsində konstitusiyamızda bəyan edilən ali məqsədlərdən biri - ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunub. O, şəhidlərimizin qanı və canı bahasına qazanılmış zəfərin Azərbaycan xalqının yaddaşında əbədi yaşayacağını vurğulayıb.

Digər çıxış edənlər də Şükür Hacıyevin qəhrəmanlığından söz açaraq onun şücaətinin gələcək nəsillər üçün örnək olduğunu qeyd ediblər.

Məktəblilər vətənpərvərlik mövzusunda qələmə alınmış şeirlər səsləndiriblər.

Sonda şəhidin anası Fatma Şükürova çıxış edərək tədbir iştirakçılarına göstərilən diqtə görə minnətdarlığını bildirib.

Şəhid üçün ehsan süfrəsi açılıb.

Qeyd edək ki, Şükür Bayram oğlu Hacıyev 25 avqust 1999-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək şəhərində anadan olub. 2005-ci ildə



Babək şəhər tam orta məktəbin 1-ci sinifinə daxil olub, 8-ci sinfi bitirdikdən sonra 2013-2016- ci illərdə Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi liseydə təhsil alıb. 2016-cı ildə hərbi liseyi bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2020-cu ildə həmin məktəbi müvəffəqiyyətlə bitirib.

Azərbaycan Ordusunun leytenantı olan Şükür Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan (Tərtər) istiqamətində gedən döyüşlərdə iştirak edib.

12 oktyabr 2020-ci ildə Suqovuşan uğrunda gedən döyüşlərdə şəhid olub.

*Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən, Şükür Hacıyev ölümündən sonra "Vətən uğrunda", " Döyüşdə fərqlənməyə görə"," Suqovuşanın azad olunmasına görə" medalları və 3-cü dərəcəli" Vətənə xidmətə görə"ordeni ilə təltif edilib.*

**Şəhid leytenant İbrahim Vəlizadə yad edilib**

Babək rayonunun Yarımca kəndində Vətən müharibəsi şəhidi, leytenant İbrahim Malik oğlu Vəlizadənin əziz xatirəsi böyük hörmət və ehtiramla yad edilib. Şəhidin məzarı ziyarət olunub, üzərinə tər qərənfillər düzülüb, ruhuna dualar oxunub.

Tədbirdə çıxış edən Babək Rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov bildirib ki, şəhidlərimizin göstərdiyi qəhrəmanlıq və fədakarlıq Azərbaycan xalqının milli iradəsini, yenilməz ruhunu və Vətən sevgisini təcəssüm etdirir.

İcra başçısı vurğulayıb ki, dövlətimiz şəhid ailələrinin sosial müdafiəsini daim diqqətdə saxlayır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə göstərdiyi yüksək qayğı bu istiqamətdə aparılan siyasətin davamlı və səmimi olduğunu göstərir.



Tədbirdə çıxış edən şəhid valideyinləri və digər qonaqlar qeyd ediblər ki, Vətən uğrunda canından keçən hər bir igidimizin xatirəsi bizim üçün müqəddəsdir. Onların şərəfli yolu Babək gəncliyinə daim örnək olacaq, xalqımızın yaddaşında əbədi yaşayacaqdır.

Qəhrəmanın döyüş həyatı və yolundan danışanlar bildirib ki, İbrahim 2003-2011-ci illərdə Yarımca kənd tam orta məktəbində, 2011-2014-cü illərdə Heydər Əliyev adına Hərbi Liseydə, 2014-2018-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. O, müharibə zamanı yaralanmış döyüş yoldaşını təhlükəsiz yerə çıxararkən böyük igidlik göstərmiş, oktyabrın 6-da iki dəfə snayper atəşinə tuş gələrək qəhrəmancasına şəhid olmuşdur.

*Şəhadətindən sonra o, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən III dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib. İbrahimdən geriyə Fərid adlı oğlu qalıb. O, atasının şərəfli adını daşıyacaq, xalqımız isə İbrahimi əbədi qəhrəman kimi xatırlayacaqdır.*

**Şəhid baş leytenant Fuad Əlizadə yad edilib**

Azərbaycan hər zaman öz igid oğulları ilə fəxr edib. Bu müqəddəs torpaq qəhrəmanlar yetişdirib. Fuad Əlizadə kimi vətənpərvər oğulları ilə tarix yazıb. 44 günlük Vətən müharibəsi şəhidlərindən biri olan Fuad Əlizadənin həyatı, döyüş yolu və qəhrəmanlığı hər birimiz üçün örnəkdir.

Bu günlərdə şəhid baş leytenant Əlizadə Fuad Nazim oğlunun da anım günü qeyd edilib.

Anım tədbirində Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşları, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Əlahiddə Ümumqoşun Ordunun əməkdaşları, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan şəhər idarəsinin məsul şəxsləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ruhlarına dualar oxunub. Çıxış edənlər baş leytenant Fuad Əlizadənin şücaətindən, keçdiyi döyüş yolundan, doğma yurda olan məhəbbətindən, həmçinin şəhid ailələri və qazilərə dövlət qayğısından bəhs ediblər.

2015-ci ildə leytenant rütbəsi ilə məzun olmuş və N saylı hərbi hissədə xidmətə başlamışdır. Fuad 2016-cı ilin Aprel döyüşlərində iştirak etmiş, burada nümunəvi xidmətinə görə bir çox mükafatlara layiq görülmüşdür. Onun bu döyüşlərdə göstərdiyi qəhrəmanlıq, 2018-ci ildə baş leytenant rütbəsi ilə təltif olunması ilə nəticələnmişdir.

2016-2020-ci illərdə Murov dağında xidmətdə olan Fuad 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsinin ilk günlərindən etibarən, döyüşlərə qatılmışdır. Fuad Əlizadə Murovdağ, Füzuli, Cəbrayıl, Qubadlı və Laçın istiqamətlərində gedən döyüşlərdə fəal iştirak edib. O, hər zaman öz döyüşçülərinin önündə olmuş, yaralı əsgərlərini təhlükəsizliyə çıxarmaq üçün həyatını riskə atmışdır. Fuadın döyüş yoldaşları onun fədakarlığını və liderlik keyfiyyətlərini böyük minnətdarlıqla xatırlayır.

Son döyüşü Laçın uğrunda olub. Yaralı olmasına baxmayaraq, döyüş meydanında qalmış digər yaralıları təhlükəsizliyə çıxarmağa çalışıb. Təəssüf ki, snayper atəşi ilə şəhidlik zirvəsinə ucalıb.

Valideynləri Şəfa xanım və Nazim bəy övladlarının həm ailəsinə, həm də




Vətəninə bağlılığından qürur duyduqlarını tədbirdə öz çıxışlarında bildirib, dövlətin şəhid ailələrinə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Fuad Əlizadənin həyatı və döyüş yolu onun Vətənə olan sonsuz sevgisini və fədakarlığını nümayiş etdirir. O, sadəcə bir hərbçi deyil, həm də Vətən uğrunda canından keçən qəhrəman bir oğul idi.

*Baş leytenant Fuad Əlizadə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə Xidmətə görə" ordeni ilə təltif edilmişdir.*

**Azərbaycan xalqı şəhidlərinin qəhrəmanlıqlarını heç zaman unutmayacaq.**

**Allah bütün şəhidlərimizə rəhmət eləsin.**

**Haqqınız ödənməz!**

***Bəxtiyar ƏLİYEV***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***